AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

**(əvvəli ötən sayımızda)**

M.P.Vaqif məhz gözəlliyə: qadın simasına, əndamına, jestlərinə bir həzinlik, ilahidən kişilərə bəxş edilmiş "libido"ya (enerjiyə) yanaşma, bir sözlə, görünənin ağıla da təsirini etiraf etmişdir sələflərindən fərqli deyimdə:

*Ağ üzə tökülən siyah sünbüllər,*
*Şəkər dodağında ibrani dillər,*
*Müənbər qoxulu, pərişan tellər,*
*Bərbad eylər hər səhərdən ağlımı.*

M.P.Vaqif bütün gözəlliyə pərəstiş etdiyi təqdirdə də ağlı-kamalı unutmur. N.Tusi ilə həmfikir olur, davranışın yerini göstərir:

*Yumru ola buxağı, gen ola üzü,*
*Çox dərdmənd ola, dərd bilə özü.*
*Gündə sürmələnə məstanə gözü,*
*Əli ola hənalı gözəlin.*

Bu, şairin göz yaddaşınını itiliyinə dəlalət edirdi.

Poeziya insanın sevincinə və kədərinə yad olmadığı kimi, qadın gözəlliyinin estetik - fəlsəfi mahiyyətini də çatdırır. Üzün, bədənin xarici əlamətlərini, xassələrini obrazlaşdırır. Qadınlar şeirə, elmin şeiriyyətinə biganə deyillər (heyif ki, Qərb ideologiyası Şərq qadınlarına çamur atmaqla təsəlli tapmışlar), oxuyub öz gözəllikləri qayğısına qalır, həyata gözəl uşaqlar gətirmək haqqında düşünürlər, öz məişətsözlə, qüdrətini parlaq şəkildə əyaniləşdirən, şeirimizi ərəbçilik və farsçılıq ənənələrindən uzaqlaşdıran M.P.Vaqifin gözəl qadın surətlərinin təsvirinə həsr olunmuş şeirləri gözəllik rəmzi qiymətindədir. Bu gözəllik duyğulu olub, insanı yaşamağa çağırır, nəcibləşdirir və həyatın gücünə inandırır. Bu gözəllik ülviliyini, əlvanlığını saxlayır.

*Kamallı gözəldən xəta kəm gərək,*
*Sevgi gərək, söhbət gərək, dəm gərək.*
*Aşiqə vəfalı bir həmdəm gərək,*
*Həmdəmsiz bal yesə ona acıdır.*

Mərhum professor, tənqidçi Məsud Əlioğlu vaxtilə yazmışdır: "M.P.Vaqif

*Mehtab hüsnünə bəndə fərmandır,*
*Qulluğunda aylar, illər dolanır.*

*Görməmişəm sən tək bir mələkzada,*
*Dərdini çəkərəm həddən ziyada,*
*Kirpiklərin ucu düşəndə yada*
*Bağrımın başında millər dolanır!*

M.P.Vaqif zahiri gözəlliyi səadət hesab etməklə bərabər, bu gözəlliyin oyatdığı zərif estetik gücündən danışır, təbii boyalarla gözəlliyin bəzi cizgilərini canlandırır.

"Sevdiyim, ləblərin yaquta bənzər" qoşması maraqlıdır.

*Xumar-xumar baxmaq göz qaydasıdır,*
*Lalə tək qızarmaq, üz qaydasıdır.*

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

*Baxdıqca baxışın şirin, gözün şux,*
*Bir əcəb cavansan nəzakətin çox.*
*Kamalında, camalında eyib yox,*
*Pərvədigar vermiş hər hünər sənə.*

M.P.Vaqifdə qadın gözəlliyinin qeyri-adi poetikləşdirilməsi onun şəxsi zövqüylə bahəm, Şərqin gözəllik qanunu ilə yanaşı - antik dövrün fəlsəfəsini mütaliə etməsini də vurğulamaq yerinə düşər. Gözəllikdə harmoniya və disharmoniya, ülvilik və eybəcərlik, mütənasiblik və qeyri-mütənasiblik kateqoriyalarına bələdlik də öz işini görmüşdür. Şair Aristotel estetikasını (Şərq mədrəsələrində öyrədilirdi) bilməmiş deyildi, üstəgəl, dövlət işində xarici ölkələrlə əlaqələri vardı. Antik filosof Aristotel istisnalıq yaratmazdı, onun "düzülüş", "mütənasiblik", "harmoniya" və s. anlayışlarını mənimsəmişdi, yoxsa o, gözəllik idealına məxsusi tarazlıq gətirə bilməzdi! Aristotel yazmışdır ki, gözəllik istər müəyyən bir canlıda, yaxud başqa şeydə məlum hadisələrdən ibarətdirsə, onda gərək bu hissələr nəinki müəyyən nizamda, həmçinin münasib həcmdə olsun: gözəllik müəyyən həcm və nizamdadır, odur ki, həddən artıq kiçicik varlıqlar gözəl ola bilməz, zira hiss olunmaz dərəcədə ani bir zaman ərzində ona baxarkən gözümüzdə əriyib qarışır, eləcə də həddindən artıq böyük varlıqlar da gözəl ola bilməz, çünki onu birdən-birə görmək olmur, tam-lığı və vəhdəti isə nəzərdən qaçır.

M.P.Vaqif onu da düşünürdü ki, qadın gözəlliyi, onun ədası, nazı kişi həyatına müsbət təsir göstərir və çox vacib amillərdən sayılır, insanın təbii təlabatını ödəyir. Uzun müddət təmin olunmazsa bu, psixi - fizioloji fəsadlar törədir, o isə şairdir, gözəlliyi tərənnüm etməlidir:

*...Yanağı gül, zülfü yasəmən gərək,*
*Məməsi dik, ağ sinəsi gen gərək.*
*Haldan xəbər verən dərd bilən gərək.*
*Heç olmaya mərdü ala gözəlin.*



lərinə diqqət göstərirlər, rəftarlarında həssas və incəliyə üstünlük verirlər. M.P.Vaqifin şeirlərini öz dövründə də oxumuş, eşitmişlər (musiqidə) və yəqinləşdirmişlər ki, bədənin harmoniyasını - gözəlliyini sosial və bioloji inkişafdan ayırmaq lazım gəlmir. Təbiətdən irsən keçmiş qadın bədəninin mütənasibliyi, üz cizgilərinin zərifliyi, yerinə düşmüş ədası, onun (qadının) həyatda xoşbəxt yaşamasına müsbət təsir göstərir, ər - arvad münasibətlərində konfliktlər yaratmır. Məgər M.P.Vaqif bu şərtlərdən (amillərdən) xəbərsiz idi?

*Sinəsi mərmərdir, sərvdir qamət,*
*Üzünü görməsəm, qopar qiyamət,*
*Oturub zülfündən etsəm hekayət,*
*Dərdim artar tuli - daraza gedər.*

*Sən gülsən, bülbül sev, xarı istəmə,*
*Hərgiz kamal istə, varı istəmə.*
*Meyl eylə Vaqifə, sarı istəmə,*
*Özü şahbaz olan şahbaza gedər.*

M.P.Vaqifin əsərlərində sələfləri kimi, qadın (xüsusilə) gözəlliyinin tərənnümü əksini tapmışdır: "Azərbaycan dilində poeziya yaratmaq olmaz" - deyən milli dil və milli mədəniyyət savadsızlarına ağır zərbə vuran, bu dilin poetik çalarlarını, akserativliyini, bir şeirinin əsas ruhunu təşkil edən həyatsevərlik mənəvi ölgünlüyə, ruh düşkünlüyünə və həvəssizliyə müqavimət sayəsində dərin və düşündürücü mahiyyət kəsb etmişdir. Həyatı və insan gözəlliyini, şirinliyini başa düşmək, duymaq, gözəlliyə layiq səviyyədə yaşamaq qəhrəmanlıqdır" ("Ədəbiyyat və incəsənət" qəzeti, 20 iyul, 1968-ci il). M.Əlioğlu "həvəssizlik" və "şirinlik" ifadələrini təsadüfi xatırlatmamışdım: Kişi bir insan zövqündə qadın vücudunu mənimsəməyə həvəsli olmalıdır, onun saçdığı şirinliyi duymalıdır. Belə bir kontestdən yanaşmaq, bu lirikada iki əsas gözəllik motivinin tərənnümünü qeyd etməliyik:

Birincisi gözəllik səadətdir, ikincisi gözəllik təmizlikdir. Səadət Vaqif poeziyasında mənəvi həyatın ekvivalenti olaraq mahiyyətcə dünyaya əxlaqi baxış, əxlaqi meyar haqqında düşüncədir. İnsan (qadın, yaxud kişi) həyatının məqsədi nədir, o, ömrünü nəyə sərf etməlidir və bu ömrü boyu nəyə cəhd göstərməlidir? Suallara cavab isə: "Həyatda ən ali nemət nədir?" sualının məntiqi qənaətidir, əxlaqi hərəkətlərin qiymətləndirilməsində bir meyardır. Səadət və mənalı həyat düşüncəsi ömrün fəaliyyət atributudur. M.P.Vaqif savadlı, qədim Şərq fəlsəfəsinə bələd idi. Səadət düşüncəsi o zaman əxlaqi mahiyyət kəsb edir, qadınla kişinin qovuşması - islamiyyət qaydaları çərçivəsində xoşbəxt-lik gətirir, azadlıq verir.

Beləliklə, birinci halda şair insana yüksək varlıq kimi baxır; insanın təbii ki, qadının gözəl olması xoşbəxtlik əlamətidir. Belə olduqda gözəllik lazımınca dəyərləndirilməlidir. Gözəlliyi duymaq üçünsə insanda müəyən təsəvvür də olmalıdır. Belə bir vəhdət yarandıqda, gözəllik haqqında anlayış birləşəndə qadın məxluqunun gözəlliyi fərdi xarakterindən çıxır, geniş təsir dairəsini şərtləndirir.

*Al geyinib çıxsan gülşən seyrinə,*
*Yığılır başına güllər, dolanır,*
*Pərişanlıq zülfün öz qaydasıdır,*
*Nə badi səbadan, nə şanədəndir.*

İnsanlığın yüksək ideallarına, mənəvi zorakılığa qarşı çıxan digər klassiklərimizin yolunu davam etdirən M.P.Vaqif də dünyəvi hisslərin ifadəsi olan gözəlliyi, ilahi bəxşişi insanın könül aləmi, əxlaqi keyfiyyətlərilə birlikdə mənimsəmişdir. Belə bir ideya gözəlliyin hər bir fərdin öz varlığında mövcudluğu ilə səslənir.

İkinci halda M.P.Vaqif qadının gözəl olmasını mühüm sayır: ağıl və qəlb, mənəvi aləm və təbii ehtiras, fiziki və daxili kamillik, nəhayət, əxlaqi məziyyət və həyat nəşəsi bir-birini tamamlayırsa gözəllik qiymətlidir, təqdirəlayiqdir.

Hərgah zahiri xoşagəlimlik, qəşənglik daxildəki saf hisslərlə ahəngdar deyilsə, nəyə lazımdır belə gözəllik! Solub gedəcəkdir! Bəs nə zaman gözəl varlıq mümkündür? Sualına cavab konkretdir: onun ağılı, davranışı, düşüncəsi təmizdir, məkrdən uzaqdır.

*Bulut zülflü, ay qabıqlı gözəlin*
*Durub başına dolanmaq gərək.*
*Bir evdə ki, belə gözəl olmaya*
*O ev bərbad olub, talanmaq gərək.*

Yaxud:

*Baxdıqca baxışın şirin, gözün şux,*
*Əcəb növcavansan nəzakətin çox,*
*Kamalında, camalında ayıb yox,*
*Pərvədigarə verib bir hünər sənə!*

M.P.Vaqifin lirik qəhrəmanı aşiqinin hüsnündə, əxalqında - davranışında bəzi sevgililərdən xeyli dərəcədə üstündür; çünki şairin özü zəngin dünyagörüşlüdür, zövqlüdür, məhəbbət, vüsal haqqında təsəvvürləri daha çox dövrünün, ictimai mühitinin əxlaqi - mənəvi amillərilə bağlıdır.

**(ardı növbəti sayımızda)**

**Allahverdi Eminov**